# QIZLARIN İNTİQAMI

Direktorumuzun müavini işin qızğın vaxtında məni hanadan ayırıb kabinetinə çağırtdı. Yaman hirsləndim. Ancaq dinmədim. Kefimi, halımı soruşandan sonra söhbətə başladı.

- Göyçək xanım, səndən bir xahiş etmək istəyirəm.

Heç üzünə də baxmadım.

- Buyurun, eşidirəm.

Xasiyyətimə bələd idi. Onun üçün də “pişim-pişim”lə danışırdı. Xoşuma gəlməyən bir şey olsaydı, tapança kimi açılacaqdım. Neyləyim, mən də bu cür yaranmışam. Ötkəməm. Söz götürmürəm. Fabrikimizdə qızlar mənə ad qoyublar. “Allahın bəlası” deyirlər.

Müavin kəlmələri ağzında köyşəyə-köyşəyə mətləbə yaxınlaşırdı.

- Elə bilirəm mənim sözümü yerə salmazsan. Məsələ belədir: ayın onunda bizim Fərhad Hüseynbalayeviçin qırx yaşı tamam olur...

- Hə?! – dedim, - Qırx yaşı?! O Nadiri taxtda görüb, Şah Abbası bələkdə...

Müavin yumşaldı:

- Bəlkə də çoxdur...Nə isə... Ona kollektivimizin iştirakı ilə bir yubiley düzəltmək istəyirik.

- Vacibdir?!

- Hər halda keçirmək yaxşıdır...

- Mən neyləməliyəm onunçun?! Hədiyyə almalıyam?!

- Yoox...- Müavin, dişi bağırsağını kəsə-kəsə zorla gülümsədi. – Ay Göyçək, bir səbrin olsun da... Dilotu yeməmisən ki.

- Onda yəqin yubileyində çalıb-oynayacağam.

- Xeyr a... Ay qız, qoy sözümü qurtarım sonra sən danışarsan.

- Buyuracaqsız!

Müavin mənim icazəmlə bir siqaret yandırıb davam elədi.

- Fərhad Hüseynbalayeviçin həyat və fəaliyyəti barədə məruzə hazırlamağı...

Yenə dözmədim:

- Onun nə fəaliyyəti var ki! –dedim- Fabrik heç ömründə bu günə düşməmişdi. Hanalar sınıb dağılır, məkiklər köhnə... Yumaqlar da ki... özünüz görürsüz. Başqalarının bəyənmədiyi keyfiyyətsiz, bəd rənglərin hamısını alıb bizə calayır. Mən lap üzünə deyərəm, yaxşı işləmir Atakişiyev.

- Indi hər nə. Direktorumuzdur da. Onun yubileyini ayaqqabı fabrikində keçirməyəcəklər ki! Bu bizim borcumuzdur. Qərəz...Mən götür-qoy elədim, məruzə hazırlamaq üçün fabrikdə, Göyçək xanım, səndən münasib adam tapılmadı. Xalçaçı qızlarımızın içində ən savadlı, fəal, diribaş

komsomolçulardan birisən. Gərək bu işi boynundan atmayasan...Açığı, əvvəlcə məruzəçi özüm olmaq istəyirdim. Sonra fikirləşib gördüm ki, bu bir az yaxşı çıxmaz. O direktor, mən müavin. Camaatımıza ayrı cür təsir bağışlar. Başa düşürsən də...

- Bəli. Deyərlər yaltaqlıq eləyir.
- Hə də. Ona görə səni məsləhət bildim.

Mən əlüstü razılıq verdim:

- Nə deyirəm. Sabah məruzəni yazıb gətirərəm.

Müavinin eyni açıldı, qımışdı:

- Lap o cür başdansovdu olmaz a... Göyçək xanım. Qabaqda hələ bir həftə vaxt var. Istəsən bu müddət ərzində səni işdən də azad eləyərik. Əlbəttə, maaşını saxlamaq şərti ilə.
- Xeyr! – dedim – Bəs hanadakı o boyda xalçanı kim toxuyub qurtaracaq! Gündə səkkiz yüz - doqquz yüz ilməni kim vuracaq. Siz, yoxsa direktor?!
- Onda özün bilən məsləhətdir.

Soruşdum:

- Bağışlayın, bəyəm məruzə neçə dəqiqə olmalıdır ki?
- Nə qədər uzun çıxsa, başının ucalığıdır .

Işin qaynar çağında sevmədiyim bir adamın yubileyinə məruzə hazırlamağı öhdəmə götürməkdə məqsədim vardı.

Bizim qızlar bilməyən şeyə qurd düşər.

Inişil Atakişiyev fabrikimizə direktor gələndə tərcümeyi-halını nöqtə-vergülünəcən öyrənmişdik. Əslində onun əlli yaşı vardı. 1922-ci ildə doğulmuşdu. Özü də Salyanda. Sonradan pasportunu dəyişəndə utanıb-qızarmadan yaşını on il azaltmışdı. Fərhad Hüseynbalayeviç üç arvad alıb-boşamışdı. Ikisinə aliment verirdi. Indi təzədən yenə evlənmək həvəsinə düşmüşdü. Fabrikimizdə qəşəng qızların gözündə cavanlaşmaq istəyirdi. Arada bir mənə də yanaşdı. Gördü yox...bu xına o xınalardan deyil. Ölmüşdü Göyçək! Fərhad Hüseynbalayeviçə bir gəlmə gəldim ki, düz getdi. Ancaq eşitmişəm axır vaxtlar başqasını gözaltı eləyib. Eybi yoxdur! O yubiley gecəsində mən bilərəm neylərəm! Bu balaca fabrikimizdəki xalçaçı qızların çoxu onun özündən də narazıdır, rəhbərliyindən də. Neçə aydır plan dolmur, direktor olan bəndə bu barədə düşünməkdənsə işini, gücünü buraxıb yubiley düzəldir.

Göyçək xanım... – deyə özünə umac ova bilməyən müavin də bu yandan özgəsinə əriştə doğrayırdı. – Çalış məruzənin gözünə bir qədər bədiilik qat. Misal üçün: bahar yenicə gəlmişdi... Təbiət gözəlləşmişdi... Təzəcə çiçəklənmiş bağlar, bağçalar adamın üzünə gülümsəyirdi. Ağaclarda quşlar şən nəğmələr oxuyurdu və ilaaxır... Belə bir gündə Fərhad Hüseynbalayeviç anadan oldu...– Müavin bu sözləri deyəndə gözlərini süzə-süzə, uzun qollarını havada oynadırdı.

Elə bir oturduğu yerdə qadınsayağı rəqs eləyirdi. – Kişinin yubileyidir də. Qoy ürəyəyatan belə xoş cümlələri sənin kimi qəşəng qızın dilindən eşidib sevinsin özü üçün.

- Axı, Atakişiyev qışda doğulub, baharın bura nə dəxli var.

- Ey...sən də elə danışırsan ki, güya uşaqsan. Baharın təsvirindən sonra keç qışa, Fərhad Hüseynbalayeviç doğulsun da... Burda nə çətin şey varmış ki!

- Aydındır, elərəm.

- Ancaq, Göyçək xanım, - deyə birdən müavin nəsə xatırlayıb ciddiləşdi. – Özün yaxşı bilirsən ki, daha belə məruzələrdə tənqid-mənqid olmaz ha...

- Bəli, bilirəm, dedim.

- Məruzənə yumor-filan qatmayasan ha...

- Baş üstə!

- Axı... xətrinə dəyməsin, sən hərdən yeri düşəndə baməzəlik eləyirsən... Güldürürsən qızları. Hüseynbalayeviçin zarafatdan zəndeyi-zəhləsi gedir.

- Siz arxayın olun ey... Mən əntiqə məruzə hazırlayacağam.

Müavin şənləndi. Böyründəki telefon dəstəyini götürüb direktora zəng vurdu:

- Fərhad Hüseynbalayeviç, mənəm. Göyçəklə necə lazımdısa danışdım. Bəli. Böyük məmnuniyyətlə razılıq verdi. Necə lazımdısa. Elə olacaq. Göndərirəm yanınıza.

O, dəstəyi qoyub, lap dərindən rahatlıqla köks ötürdü. Sonra üzünü yenə mənə tutdu:

- Eşitdin? Dur, daha yubanma. Kişi səni gözləyir.

Mən ayağa qalxanda müavin içi dolu ağır bir qovluğu sağ qoltuğuma dürtdü.

- Ağ kağızdır, - dedi və nigarançılıqla xəbər aldı: - Göyçək xanım, bu işin yüksək səviyyədə keçəcəyinə mən neçə faiz əmin olum?

- Yüz faiz!

- Afərin! Məruzən xoşuma gəlsə, öz yubileyimdəkini də sənə tapşıracağam.

Mən müavinin kasıb otağından çıxdım, direktorun bəzəkli otağına girdim.

Atakişiyev yenə stolunun arxasında əsil yubilyar kimi özünü çəkib oturmuşdu. Qalın, qara qaşlarının altında gizlənmiş xırda, muncuq gözlərini sifətimə zilləyib çox zənnlə baxdı. Haçandan-haçana dilləndi:

- Sənin təhsilin nə qədərdir?

- Orta məktəbi bitirmişəm.

Ehmalca başını tərpətdi. Yəni: “Bacararsan.”

- Özünü necə hiss edirsən?

-Əla

Fərhad Hüseynbalayeviç stolunun üstündə məruzəçi üçün hazırladığı ağzıbağlı qalın qovluğu götürüb mənə uzatdı.

- Buyur, həyat və fəaliyyətimlə əlaqədar bütün sənədlər bunun içindədir. Itirməyəsən.

Bu dəfə direktorumuza lap yaxından diqqətlə nəzər yetirdim. əlli yaşı rahat olardı.

Ikinci qovluğu da bundan alıb sol qoltuğuma vurdum.

- Gedə bilərəm, Fərhad Hüseynbalayeviç?

O günahsız mələk tək gülümsəyib başını sinəsinə endirdi. Ətli, sallaq buxağı albuxara torbası kimi qat-qat qırışdı.

- Diqqətli ol, həyat faktlarımı təhrif eləmə. Müvəffəqiyyətlər!

...Mən evə gəlincə qovluğu açıb sənədləri bir-bir gözdən keçirdim. Bizim qızlar düz deyirmiş. Atakişiyrv sonradan yaşını düz on il azaltmışdı. Buna görə də tərcümeyi-halı çox gülməli vəziyyətə düşmüşdü. Mənə də elə bu bəs idi.

***

Klubumuzun çilçıraqlarında  birinci dəfə idi gur işıqlı lampalar yanırdı. Səhnə fabrikimizdə toxunan əlvan naxışlı xalçalarla, gül-çiçəklə bəzədilmişdi. Rəyasət heyyətində qara kostyumlu, göy qalstuklu yubilyar,  ətrafında müavini və bir neçə nəfər istehsalat qabaqcılları əyləşmişdi. Mən də onların arasında idim. Səhnənin arxa divarında Fərhad Hüseynbalayeviçin yəqin ki, iyirmi il qabaq, başının tüklü vaxtında çəkdirdiyi gülümsər foto-şəkli asılmışdı. Altda qırmızı şərid üzərində qızılı hərflərlə “F.H.Atakişiyev 40” yazılmışdı.

Zalda yüzə yaxın xalçatoxuyan qızlarımız, qadınlarımız toplanmışdı. Hamısı da zövqlə, qəşəng geyinmişdi. Qabaqdan iki cərgəni özfəaliyyət dərnəklərimizin çalanları, oxuyub-oynayanları tutmuşdu. Gecənin repertuarı belə idi. Giriş sözü, mənim məruzəm, təbriklər, sonra da konsert. Lap axırda yubilyarın hesabına şirin çay içib, adama bir dənə iyirmi iki qəpiklik “napoleon” pirojnasi yeyəcəkdik.

Müavin qalxıb əzbərlədiyi təmtəraqlı cümlələrlə Atakişiyevin 40 illiyini düz yarım saat mübarəklədikdən sonra sözü mənə verdi. Ürəyim döyünə-döyünə natiq kürsüsünə yan aldım. Ona görə həyəcan keçirirdim ki, çıxışımda bir kəlmə də tərif yox idi... Məruzəmin girişini mənə tapşırıldığı kimi baharın gəlməsi, ağacların çiçəklənməsi, quşların cəh-cəh vurmasi ilə başlamışdım. Bunların hamısını bədii kitablardan köçürmüşdüm. Məndə o qədər vaxt hardandı oturub özümdən yazaydım.

Səsim titrəyə-titrəyə bu yerləri kağızdan oxuyanda baxışlarından duyurdum: yubilyar xoşhallanırdı. Müavinin ağzı açıla qalmışdı. Ancaq zaldakı

qızların əksəriyyəti rişxəndlə xısın-xısın gülürdülər. Axı işin sonrasından xəbərdardılar. Məruzəni yazmamışdan hamılıqla məsləhətləşmişdik. Indi deyəcəyim sözlərlə Atakişiyevdən tək öz intiqamımı almayacaqdım, rəfiqələrimin çoxunun ürəyindən tikan çıxaracaqdım. Məruzənin maraqlı yerinə çatanda ağzımı mikrofona yaxınlaşdırıb səsimi qaldırdım:

-... Fərhad Atakişiyev anadan olmamışdan hələ üç il qabaq birinci sinifdə oxumağa başlamışdır...

Elə bunu demişdim ki, zaldan gülüşmə qopdu. Fərhad Hüseynbalayeviç dönüb tərs-tərs mənə baxdı. Müavinə elə bil iynə batırdılar. Cəld yerindən sıçrayib ayağa qalxdı, gözləri bərələ qaldı.

Mən özümdən uydurmurdum. Atakişiyev təzə pasporta əsasən 1932-ci ildə doğulmuşdu. Ancaq köhnədən qalma şəhadətnaməsində məktəbə 1929-cu ildə getdiyi yazılmışdı. Təcümeyi –halın o biri faktları da hamısı belə dolaşmışdı. Mən direktorun, müavinin özündən çıxmasına əhəmiyyət verməyib davam etdim:

- Atakişiyev 1932-ci ildə üçüncü sinfə keçəndən sonra Salyanda anadan olmuşdur.

Zala yenə çaxnaşma düşdü. Səs, küy, qəhqəhə bir-birinə qarışmışdı.

- Yeddi yaşında orta məktəbi bitirən Fərhad Atakişiyev doqquz yaşında əlinə tüfəng alaraq Böyük Vətən müharibəsi cəbhələrində alman işğalçılarına qarşı qəhrəmancasına vuruşmuşdur. Bir il sonra, yəni Atakişiyevin on yaşı tamam olanda ombasından yaralanıb, evə qayıtmışdır.

Uğunub gülməkdən gözləri yaşarmış zaldakılar bir-birinin üstünə yıxılırdı. Indi rəyasət heyyətindəkilər də onlara qoşulmuşdu. Təkcə yubilyarla müavin çaşıb qalmışdı. Hər ikisi məni susdurmaq üçün yerlərindən nə isə qışqırırdılar. Lakin klubdakı qarmaqarışıqlıq içərisində səsləri eşidilmirdi.

Fərhad Atakişiyev on iki yaşında ikən onun birinci arvadından ekiz oğlu olmuşdur...

Bura çatanda daha özümü saxlaya bilmədim. Mən də camaata qoşulub qəşş elədim. Qəhqəhəm mikrofonda güclənərək kişi səsinə çevrildi. Bütün zala yayıldı...klubun divarlarında titrədi.

Yubilyar acıqla qalxıb rəyasət heyyətini tərk elədi, müavini də onun dalınca yüyürdü.

Zaldakılar mənə əl vururdular. Atakişiyevə gülürdülər.

***

Yubileyindən sonra Fərhad Hüseynbalayeviç tamam başqa adam olub. Qızlarla çox rəsmi danışır. Məruzəmi qovluqdakı sənədlərinin arasına qoyub ona

vermişdim. Deyəsən arvadı da evdə oxuyub. Tənqidimdən nəticə çıxarıb. Elə müavin də özünü yığışdırıb. Indi fabrikimişdə işlər nisbətən qaydasına düşüb.

Neyləyim, mən də belə yaranmışam. Ötkəməm. Sözün düzünü deməkdən çəkinmirəm. Qızlarımız mənə nahaqdan ad qoymayıblar ki: ”Allahın bəlası”

Yalan, doğru, bilmirəm, bu günlərdə bir söz də eşitmişəm. Fərhad Hüseynbalayeviç pasportunu təzədən dəyişdirmək istəyir.

*5 noyabr 1972*